AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T

1. Ön söz................................................................................................................. 3

2. Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu..................... 6

3. Ali Məhkəmədə 2020-ci ildə baxılmış işlər haqqında ümumi məlumat............................. 8

4. Ali Məhkəmənin 2020-ci il ərzində fəaliyyəti barədə məlumat.......................................... 9
   4.1. Ali Məhkəmənin Kollegiyalarının fəaliyyəti barədə məlumat.................................... 9
   4.2. Ali Məhkəmənin Plenumunun fəaliyyəti barədə məlumat.......................................... 16
   4.3. Ali Məhkəmənin Aparatı və İşlər İdarəsinin fəaliyyəti barədə məlumat..................... 19

5. Ali Məhkəmənin 2020-ci ildə beynəlxalq əlaqələri.......................................................... 26

6. Ali Məhkəmənin bülleteni.................................................................................................. 36

7. Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi............................................................ 37

8. Media nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası ................................................ 38

# 1. Ön söz

2020-ci il xalqımızın yaddaşında Zəfər ili kimi yaşayacaq. 30 il düşmən işğalında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərkərdəliyi və ordumuzun qüdrəti ilə işğaldan azad edilmişdir. Bu qələbə dövlət, ordu və xalq birliyinin təcəssümünə çevrilmişdir. Bu qürur hisslərini bizə yaşadanlara Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan minnətdarlığımı bildirirəm. Qazilərimizə can sağlığı, şəhidlərimizə rəhmət diləyirəm.

Ötən il məhkəmə hüquq sistemində islahatlar, yenilənmə tədbirləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanın icrası ilə bağlı bir sıra işlər görülmüşdür. Fərmana uyğun olaraq mühüm qanunlar qəbul edilib, o cümlədən cəza siyasəti humanistləşdirilib, karantin şəraitində elektron xidmətlərin göstərilməsi və məhkəmə proseslərində müasir informasiya-kommunikasiya texnologiyalarının və elektron idarəetmənin tətbiqi genişləndirilib.

2020-ci ildə koronavirus (COVID-19) infeksiyasının bütün dünyada olduğu kimi ölkəmizdə də həyatın bütün digər sahələri ilə bərabər məhkəmə fəaliyyətinə də təsirsiz ötüşməmişdir. Nazirlər Kabinetinin müvafiq qərarları əsas götürülərək məhkəmələrdə bir neçə dəfə müəyyən müddətlik təxirəsalınmaz qaydada baxılmalı olan, yaxud məhkəmə baxışının keçirilməsini tələb etməyən işlər istisna olunmaqla, icraatda olan digər işlərə baxılması müvəqqəti olaraq təxirə salınmışdır. Ali Məhkəmə pandemiya vəziyyəti ilə bağlı bir neçə dəfə mövcud koronavirus infeksiyası dövründə məhkəmə fəaliyyətinin həyata keçirilməsi qaydaları ilə bağlı tövsiyələrin əks olunduğu məlumatlar yaymışdır.

Bu hal bütün digər problemlərlə yanaşı həm də böhran vəziyyətlərində ədalət mühakiməsi sisteminin çalışmasını təmin etmənin alternativ yollarını düşünməyə dair yeni çağırışlarla üz-üzə qoymuşdur. Bu məqsədlə məhkəmələrin ənənəvi qaydada fəaliyyətlərini təmin etməyin mümkün olmadığı böhran vəziyyətlərində məhkəmələrin idarə olunmasına və təməl prinsiplərə riayət etməklə ədalət mühakiməsinin həyata keçirilməsinə dair yeni yanaşmalar işlənib hazırlanır. Bu məqsədlə 2020-ci il 30 noyabr tarixində Azərbaycan Respublikası Ali Məhkəməsi və "CEELI Institute"-nun birgə təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa ölkələri Ali Məhkəmə sədrlərinin iştirakı ilə "Pandemiya dövründə məhkəmə fəaliyyətinin idarə edilməsi" mövzusunda videokonfrans keçirilmişdir.

2020-ci ilin koronavirus infeksiyası səbəbindən məhdudiyyətlərlə dolu bir il olmasına, işlərə baxılmasında müəyyən müddətlik təxirlərin yaranmasına baxmayaraq Ali Məhkəmə öz fəaliyyətinə fasiləsiz olaraq davam etmişdir.

Milli qanunvericiliyin və insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq hüquq normalarının məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılmasını təmin etmək məqsədi ilə Ali Məhkəmə öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə 2020-ci ildə ayrı-ayrı sahələr üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi işi davam etdirilmiş, eyni zamanda bəzi məsələlər üzra məhkəmə fəaliyyətinin monitorinqlərin aparılmasına başlanmışdır. Qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı 400-dən çox hüquqi akt layihəsi araşdırılaraq təhlil edilmiş və müvafiq rəy və təkliflər verilmişdir.

2020-ci ildə dövlət orqanlarından və bilavasitə vətəndaşlardan Ali Məhkəməyə 23878 müraciət daxil olmuş və müvafiq qaydada müraciətlərə baxılmış və ya cavablandırılmışdır. Azərbaycan Respublikasında koronavirus infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə görülən tədbirlər nəticəsində 2020-ci ilin mart ayından başlayaraq vətəndaşların fərdi və kollektiv qaydada qəbulu dayandırıldığından qəbul digər vasitələrlə həyata keçirilmişdir. Bu dövr ərzində Ali Məhkəmənin sədri, sədr müavini və kollegiya sədrləri tərəfindən 230 nəfər, o cümlədən 135 nəfər bölgələrdə qəbul olunmuşdur. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilmiş, qaldırılan məsələlərlə bağlı izahlar verilmiş, eyni zamanda təqdim edilmiş müraciətlər üzrə Ali Məhkəmənin qəbulda iştirak edən aidiyyəti məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulduğundan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ Azərbaycan Respublikasının hüquq sistemi üçün mühüm əhəmiyyət kəsb edir. Məhkəmələrin iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmlidir. 2018-ci ildən etibarən Ali Məhkəmənin üzv olduğu İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Yuxarı İnstansiya Məhkəmələr Şəbəkəsi" "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının üzv dövlətlər tərəfindən təyin edilmiş məhkəmələr arasında informasiya mübadiləsinin aparılması üzrə platformasının yaradılmasını nəzərdə tutur və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələr tərəfindən Avropa Konvensiyasının müddəalarını və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərini düzgün və vahid qaydada tətbiqinin təmin edilməsinə xidmət edir.

İnternet səhifələrində Ali Məhkəmənin daim yeniləşdirilən saytı yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar yayılır. Hər bir vətəndaş və media əməkdaşı Ali Məhkəmənin fəaliyyəti haqqında ətraflı məlumat əldə edə bilər. İkinci Vətən Müharibəsi ilə bağlı bəyanatlar tərtib edilmiş və Ali Məhkəmənin veb-saytında dərc edilmişdir. Ali Məhkəmənin veb-saytında yaradılmış "Qarabağ Azərbaycandır!" interaktiv bölməsi Azərbaycan dilində tərtib edilmiş, rus və ingilis dillərinə müvafiq tərcümələr edilmiş, həmçinin Facebook və Twitter sosial şəbəkələrində müxtəlif xəbərlər və məlumatlar dərc edilmişdir. "Elektron məhkəmə informasiya sistemi" və Azərbaycan Respublikasının Ali Məhkəməsində mövcud informasiya texnologiyaları infrastrukturu üzrə aparılmış təkmilləşdirmə, modernizasiya və informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq işlər görülmüşdür.

2020-ci ilin yekunları göstərir ki, Ali Məhkəmənin icraatında 2020-ci ildə 2019-cu ilə nisbətən az iş olmuşdur. Bu səbəbdən baxılmış işlər - Mülki Kollegiyada 34,6 faiz, Kommersiya Kollegiyasında 47,4 faiz, İnzibati Kollegiyada 29,5 faiz, Cinayət Kollegiyasında 41 faiz azalmışdır. Ümumiyyətlə, Ali Məhkəməyə daxil olmuş işlərin sayı 29,9 faiz azalmışdır. Plenumda 2019-cu ildə 21 işə baxıldığı halda, 2020-ci ildə cəmi 16 işə baxılmışdır. Ali Məhkəməyə edilən müraciətlərdə də azalma müşahidə olunmuşdur. Bütün bu azalmalar Azərbaycanda indi də davam edən pandemiya şəraiti ilə əlaqədardır.

Yeni formatda hazırlanmış Azərbaycan Respublikası Ali Məhkəmənin 2020-ci ildə fəaliyyətinə dair hesabatda Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi, strukturu və digər interaktiv statistik məlumatlar öz əksini tapmışdır. Xüsusilə, ayrı-ayrı kollegiyaların fəaliyyət dinamikasının diaqramlardan və qrafiklərdən istifadə edilərək təqdim olunması il ərzində görülən işlər barədə dolğun təsəvvür yaradır.

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## 2. Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki, inzibati, kommersiya, cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından (mülki kollegiya, kommersiya kollegiyası, inzibati kollegiya və cinayət kollegiyası) ibarətdir.

Ali Məhkəmənin tərkibinə Ali Məhkəmənin sədri, onun müavini, kollegiya sədrləri və hakimləri daxildirlər.

Hakimlərin ümumi sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunur. Məhkəmələr üzrə bölgüsünü qanunvericiliyə uyğun olaraq Məhkəmə-Hüquq Şurası müəyyənləşdirir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə və 95-ci maddəsinin 10-cu bəndinə uyğun olaraq Ali Məhkəmənin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

Ali Məhkəmə 2020-ci ildə Ali Məhkəmənin sədrindən, sədrin müavinindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən (Mülki kollegiya - kollegiya sədri və 15 hakim; İnzibati kollegiya - kollegiya sədri və 6 hakim; Cinayət kollegiyası - kollegiya sədri və 7 hakim; Kommersiya kollegiyası - kollegiya sədri və 5 hakim) – ibarət cəmi 39 hakim tərkibində fəalliyyət göstərmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir. Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır. Plenum baxılan məsələlər üzrə qərar qəbul edir. Ali Məhkəmə Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikası Ali Məhkəməsinin strukturu



# 3. Ali Məhkəmədə 2020-ci ildə baxılmış işlər haqqında ümumi məlumat

2020-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında **12.397** iş, o cümlədən:

- Mülki kollegiyada **7.312** iş;
- İnzibati kollegiyada **2.707** işə;
- Kommersiya kollegiyasında **430** işə;
- Cinayət kollegiyasında **1.921** iş;
- Plenumda isə **27** iş olmuşdur.

2020-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumun icraatında olmuş işlərdən **8.933 (72%) işə, o cümlədən**

- Mülki kollegiyada **5.219** işə,
- İnzibati kollegiyada **2.230** işə,
- Kommersiya kollegiyasında **263** işə,
- Cinayət kollegiyasında **1.205** işə,
- Plenumda isə **16** işə baxılmışdır.

Ali Məhkəmədə 2020-ci ildə baxılmış işlərin sayı 2019-cu il ilə müqayisə etdikdə **4.871** işin (**yəni 35,3%%)** azalması görünür.Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Mülki kollegiyada **2.766 iş (34,6%) azalmış;**
- İnzibati kollegiyada **932 iş (29,5%)azalmış,**
- Kommersiya kollegiyasında **237 iş (47,4%) azalmış;**
-Cinayət kollegiyasında **840 iş (41%) azalmış;**
-Plenumda isə **5 iş (23,8%) azalmışdır.**

# 4. Ali Məhkəmənin 2020-ci il ərzində fəaliyyəti barədə məlumat

## 4.1. Kollegiyaların fəaliyyəti

**1.** 2020-ci il 20 fevral tarixdə “Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına əlavə və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı qəbul edilmişdir. Bununla da, 2020-ci il 1 mart tarixindən qüvvəyə minmiş qanunvericilikdəki dəyişikliklərlə məhkəmə təcrübəsinə dair verdiyi izahla bağlı Ali Məhkəmənin Plenumunun qərarlarının hüquqi əhəmiyyətinin artırıldığı nəzərə alınmış, Ali Məhkəmənin Plenumunun bütün qərarları yenidən öyrənilmiş, mülki, inzibat və kommersiya işləri ilə bağlı bəzi qərarlar qüvvədən düşmüş hesab olunmuş, bır sıra qərarlara isə müvafiq əlavə və dəyişikliklər edilmişdir. Cinayət işləri ilə bağlı Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrinə edilmiş dəyişikliklərlə əlaqədar və təcrübədə yaranan müxtəlif hüquqi məsələlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarlarına dəyişikliklərin edilməsi haqqında layihələr hazırlanaraq Apellyasiya instansiyası məhkəmələrinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmiş və müvafiq rəy və təkliflər alınmışdır.

**2.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinin dördüncü hissəsinə əsasən “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması” Qaydası layihəsi Ali Məhkəmə tərəfindən hazırlanmış və həmin layihə Məhkəmə Hüquq Şurası tərəfindən qəbul olunmuşdur. Bununla da, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini təmin etməyə imkan verən yeni bir hüquqi mexanizm işə salınmışdır. Həmin Qaydaya uyğun olaraq ilk dəfə “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 2011-ci il 28 noyabr tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının, habelə “İşlərin ümumi və ya kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının icrası üzrə məhkəmə fəaliyyətinin

monitorinqi planları layihələri, habelə monitorinqə dair anket formaları hazırlanmışdır. Hər iki monitorinq planı Plenumun 2020-ci il 18 sentyabr tarixli Qərarı ilə təsdiq edilməklə müvafiq olaraq oktyabr və noyabr aylarından 1 (bir) illik müddət ərzində məhkəmə fəaliyyətinin bu istiqamətlər üzrə monitorinqinin keçirilməsi qərara alınmışdır. Beləliklə, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı nöqsanların müəyyən edildiyi sahələrdə məhkəmə fəaliyyətinin monitorinqini aparmaq mümkün hala gəlmişdir.

**3.** Məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı hüquqi müəyyənliyin təmin edilməsi məqsədi ilə 2020-ci il yanvarın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə 2019-cu il 9 iyul tarixli 1633-VQD nömrəli Qanunla edilmiş dəyişikliklərin tətbiqi üzrə əsaslandırılmış izahın verilməsi zərurəti yarandığından "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərar, habelə qərarın icrası üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi meyarları və onların xüsusiyyətlərini, o cümlədən bu meyarlar üzrə yoxlanılma ardıcıllığını əks etdirən cədvəlin layihələri Kommersiya Kollegiyası ilə birgə hazırlanaraq, Plenumun 2020-ci il 18 sentyabr tarixli iclasında təsdiq edilmişdir.

**4.** Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Ali Məhkəmə tərəfindən 5 (beş) mübahisəli məsələ üzrə "Məhkəmələr və hakimlər haqqında" Qanunun 79-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət edilmişdir. Belə ki, Mülki Kollegiya cari il ərzində 3 (üç) mübahisəli məsələ ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət etmişdir. Bir mübahisəli məsələ Konstitusiya Məhkəməsi Plenumunun 2021-ci il 8 yanvar tarixli Qərarı ilə öz həllini tapdığından baxışdan çıxarılmışdır. İnzibati Kollegiyada isə İnzibati Prosessual Məcəllənin 98-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət edilərək 2 (iki) məsələ üzrə İnzibati Kollegiyanın Qərardadı qəbul edilmişdir. Bütün hallarda mübahisəli hüquqi məsələlərə hüquq ictimaiyyətinin diqqətini çəkmək məqsədi ilə Ali Məhkəmənin internet səhifəsi və sosial şəbəkələr vasitəsilə verilmiş məlumat nəticəsində maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və ayrı-ayrı təşkilatlar tərəfindən çoxsaylı yazılı formada əsaslandırılmış rəylər (*amicus curiae* rəyi) təqdim edilmiş, nəticədə Ali Məhkəmənin şəffaflığı və ictimaiyyətə açıqlığı təmin olunmuşdur. Gələcəkdə ehtiyac yarandıqca əhəmiyyətli və faydalı olan bu hüquqi

imkandan istifadənin davam etdirilməsi nəzərdə tutulur. Əlavə etmək lazımdır ki, Mülki Kollegiya daxilində qanunverciliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı əlavə 8 hüquqi məsələ üzrə də vahid yanaşma formalaşdırılmışdır. Həmçinin qeyd edilməlidir ki, Kommersiya Kollegiyası daxilində iki hüquqi məsələ üzrə vahid yanaşma formalaşdırılmış, eyni zamanda 2020-ci ildə Kommersiya Kollegiyası tərəfindən lizinq mübahisələri üzrə baxılmış işlər təhlil edilərək, bu növdən olan mübahisələr üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmini məqsədilə Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət edilmişdir. Lakin Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə əlaqədar məhkəmənin iş rejimində məhdudiyyətlərin tətbiqi səbəbindən, mübahisəli hüquqi məsələ üzrə mülki və kommersiya kollegiyalarının birgə iclasının keçirilməsi növbəti ilə keçirilmişdir.

**5.** Mülki, İnzibati və Kommersiya Kollegiyaları tərəfindən mülki, inzibati və kommersiya məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş bütün qərarlar xüsusi meyarlar üzrə öyrənilmişdir. Əldə edilmiş nəticələrlə hər bir apellyasiya məhkəməsinə və hər bir hakimə münasibətdə ünvanlı işlərin görülməsi və son nəticədə apellyasiya məhkəməsinin qərarlarının ləğvinin azaldılmasına nail olmağa çalışılır. Apellyasiya məhkəməsinin ləğv edilmiş qərarlarının təhlil meyarları belə müəyyənləşdirilmişdir – 1) məhkəmənin işin hallarının tam araşdırılması və faktiki halların düzgün müəyyənləşdirilməsi ilə bağlı yol verdiyi pozuntular; 2) məhkəmənin hüququn tətbiqi ilə bağlı yol verdiyi pozuntular. Bu işlərin görülməsi, həm də Ali Məhkəmənin qərarlarının keyfiyyəti ilə bağlı məsələləri də təhlil etməyə imkan verir.

**6.** Ali Məhkəmənin Kollegiyalarında baxılan konkret işlərin məhkəmə tərkiblərində, daha sonra isə Kollegiyalarda öyrənilməsi və müzakirəsi işi daha da təkmilləşdirilmişdir. İşlər əvvəlcə məhkəmə tərkiblərində hakimlərin öz aralarında, daha sonra isə Kollegiyalarda ətraflı müzakirə edilir. Vahid mövqeyin formalaşdırılması tələb olunan məsələlər üzrə isə Kollegiyaların bütün üzvlərinin iştirakı ilə geniş müzakirələr aparılır. Hər bir iş üzrə qanuni qərarın qəbul edilməsi, eləcə də vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün lazımi səylər göstərilir.

**7.** 2020-ci ilin birinci yarımilində kassasiya şikayətlərinin mümkün sayılmamasına dair işlər üzrə İnzibati Kollegiya tərəfindən ümumiləşdirmə işi aparılmış və nəticələri hakimlərin iştirakı ilə müzakirə edilmişdir. Nəticədə kassasiya şikayətlərinin mümkünlüyü ilə bağlı bəzi

məsələlər üzrə hakimlər arasında mövcud olan fikir ayrılıqları aradan qaldırılaraq vahid yanaşma müəyyən edilmişdir. Həmçinin, Mülki Kollegiyada kassasiya və əlavə kassasiya şikayətlərinin, onların prosessual tələblərə uyğunluğu, məzmun baxımından keyfiyyətli və əsaslandırılmış surətdə tərtibi ilə bağlı və mövcud çatışmazlıqların aradan qaldırılması məqsədi ilə müvafiq təhlil aparılmışdır. Bununla yanaşı, Ali Məhkəmənin kassasiya şikayətlərinin/kassasiya protestlərinin və onlara etirazların keyfiyyətinin yüksəldilməsi məqsədi ilə mülki, cinayət, inzibati və kommersiya işləri üzrə kassasiya şikayəti və ona qarşı etirazın vahid nümunəvi forması hazırlanmışdır.

**8.** Ölkə üzrə inzibati məhkəmələrdə baxılan işlərin xeyli hissəsinin pensiya mübahisələri olduğu nəzərə alınmaqla Ali Məhkəmənin İnzibati Kollegiyasında həmin işlər təhlil edilərək öyrənilmiş və bununla bağlı məhkəmələrə 2020-ci il 18 noyabr tarixli müvafiq icmal məktub ünvanlanmışdır. Həmin məktubda əmək pensiyalarının təyin edilməsi və ya yenidən hesablanması ilə əlaqədar mübahisələrə baxılarkən məhkəmələrdə aparılmalı olan araşdırmanın qaydasına və həcminə dair bir sıra məsələlərlə bağlı zəruri izahlar verilmişdir.

**9.** Cinayət Kollegiyası tərəfindən birinci instansiya məhkəmələrində 2018-ci ildə hökmün icrası qaydasında "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci 20 oktyabr tarixli, 816-VQD nömrəli Qanununun tətbiqi təcrübəsi və 2019-cu ildə insan alveri (Cinayət Məcəlləsinin 144-1-ci maddəsi), məcburi əmək (Cinayət Məcəlləsinin 144-2-ci maddəsi), insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər (Cinayət Məcəlləsinin 144-3-cü maddəsi), fahişəliyə cəlb etmə (Cinayət Məcəlləsinin 243-cü maddəsi) və əxlaqsızlıq yuvaları saxlama (Cinayət Məcəlləsinin 244-cü maddəsi) cinayətlərinə baxılması zamanı cinayət cəzalarının təyin edilməsi, həmçinin Xuliqanlıq və xuliqanlıq niyyəti ilə törədilmiş həyat və sağlamlıq əleyhinə cinayətlərə dair işlərə kassasiya qaydasında baxılması üzrə məhkəmə təcrübəsi üzrə ümumiləşdirmələr aparılmış və nəticələrinə görə icmallar hazırlanmış və sözügedən icmallar kitabça şəklində çap edilmiş və məhkəmələrə göndərilmişdir. Həmçinin, birinci və apellyasiya instansiya məhkəmələri tərəfindən 2019-cu ilin birinci yarımilliyində təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbiri seçilməsi və həbsdə saxlama muddətinin uzadılmasına dair təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsi ilə bağlı təhlillər aparılaraq arayış hazırlanmışdır.

**10.** Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1436-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə 10-1-ci maddə əlavə

edilmiş, kommersiya mübahisələri üzrə məhkəmə icraatının, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılmasının “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilməsinin məcburiliyi təsbit edilmişdir. Kommersiya Kollegiyası tərəfindən həmin normanın məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə göndərilmiş işlər üzrə tətbiqi təcrübəsi təhlil edilmiş və məhkəmələrə 2020-ci il 3 sentyabr tarixində müvafiq icmal məktub ünvanlanmışdır. Həmin məktubda kommersiya mübahisələri üzrə elektron icraatın aparılmasının təmini məqsədi ilə lazımi zəruri izahlar verilmişdir.

**11.** Ali Məhkəmənin İnzibati Kollegiyası 2020-ci ilin iyun ayından etibarən öz fəaliyyətində “Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair (inzibati işlər üzrə) sorğu”nun tətbiqinə başlamışdır. Bu, keyfiyyəti ölçməyə şərait yaradan yeni meyarlar məhkəmə fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə şərait yaratmışdır. Artıq həmin sorğuların doldurulması nəticəsində müəyyən məlumat bazası toplanmışdır və onun əsasında müvafiq təhlillər və qiymətləndirmələr aparılmaqdadır. 2021-ci ildə Mülki və Kommersiya Kollegiyaları tərəfindən məhkəmə fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə imkan verən “Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair sorğu” formaları hazırlanaraq, elektron formata keçirilməsi və “Elektron məhkəmə” informasiya sisteminə inteqrasiya olunması üçün işlər artıq görülmüşdür və ən qısa zamanda tam şəkildə tətbiqinin yekunlaşması gözlənilir.

**12.** 2020-ci ilin birinci yarısında məhkəmələrdə inzibati və kommersiya mübahisələrinə baxılması vəziyyətinə dair ətraflı hesabat hazırlanmışdır (2020-ci il üçün bütün kommersiya işləri üzrə ətraflı hesabat hazırlanmışdır). Həmin hesabatda bütün məhkəmə instansiyaları üzrə inzibati və kommersiya məhkəmələrinin iş yükü, baxdığı mübahisələrin kateqoriyası, məhkəmə qərarlarının sabitliyi ilə bağlı məsələlər ətraflı təhlil olunmuşdur. Hesabat həmçinin ölkə üzrə bütün inzibati və kommersiya məhkəmələrinə və apellyasiya instansiyası məhkəmələrinə göndərilməklə onlarla bölüşülmüş, müvafiq təkliflər alınmışdır.

**13.** İnzibati işlər üzrə çıxarılmış məhkəmə qərarlarının icra vəziyyətinin mütəmadi olaraq izlənilməsi, bununla bağlı mövcud problemlərin öyrənilməsi üçün ətraflı araşdırma aparılmış və lazımi məlumatların əldə edilməsi üçün müvafiq nümunəvi hesabat formaları hazırlanaraq ölkə üzrə bütün inzibati məhkəmələrə göndərilmişdir. Məqsəd inzibati işlər üzrə məhkəmə qərarlarının real icra vəziyyəti barədə mənzərəni müəyyən etmək, sistemli xarakterli

pozuntular olub-olmadığını aşkara çıxarmaq, qanuni qüvvəyə minmiş qərarlarının icra edilməməsinin konkret səbəblərini aydınlaşdırmaqla onların həllinə yönəlmiş ünvanlı tədbirlər görməkdən ibarətdir.

**14.** “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamında dövlət xidmətlərinin təkmilləşdirilməsi sahəsində görüləcək tədbirlərdən biri kimi, Ali Məhkəməyə məhkəmə qərarları ilə dövlət qurumları və yerli özünüidarəetmə orqanlarının inzibati aktlarının ləğv edilməsinin, hərəkət və ya hərəkətsizliklərinin qanunsuz hesab edilməsinin səbəblərinə dair illik ümumiləşdirmələrin keçirilməsi və aidiyyəti orqanlara təqdim edilməsi tövsiyə edilmişdir. Bununla əlaqədar olaraq 2020-ci ildə məhkəmələrdə inzibati mübahisələrə baxılması vəziyyətinə dair aparılmış ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikasının Baş nazirinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının sədrinə təqdim olunaraq məhkəmə mübahisələrinə baxılarkən inzibati orqanların fəaliyyətində aşkar edilmiş “İnzibati icraat haqqında” Qanunun pozuntuları sadalanmaqla inzibati orqanların fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş müvafiq tədbirlərin həyata keçirilməsi məsələsinə baxılması xahiş edilmişdir.

**15.** Mülki, İnzibati və Kommersiya Kollegiyalarının qərarları təhlil edilərək, qanunvericiliyin tələbləri, beynəlxalq təcrübə, habelə qərarların çatımlılığı ilə bağlı ictimai tələbat nəzərə alınmaqla, yeni qərar nümunəsi layihəsi, habelə bu yeni qərarların forma və məzmununa dair tələbləri əks etdirən işçi sənəd kimi daxili istifadə üçün nəzərdə tutulan müvafiq təlimat hazırlanmışdır. 2020-ci ilin sentyabr ayından etibarən Mülki, İnzibati və Kommersiya Kollegiyalarında mərhələli şəkildə yeni formada qərarların tətbiqinə başlanılmışdır.

**16.** 2020-ci il ərzində Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə bir sorğu verilmiş, 13 iş üzrə isə Konstitusiya Məhkəməsinin müraciətlərinə yazılı mülahizələr və mütəxəssis qismində müvafiq rəylər hazırlanaraq göndərilmişdir. Belə ki, Mülki Kollegiya tərəfindən bir sorğu verilmiş, habelə beş iş üzrə yazılı mülahizələr hazırlanaraq təqdim edilmişdir. Kommersiya Kollegiyası tərəfindən bir iş üzrə, Cinayət Kollegiyası tərəfindən isə yeddi iş üzrə yazılı mülahizələr və mütəxəssis qismində müvafiq rəylər hazırlanaraq müraciət müəllifinə göndərilmişdir.

**17.** Dövlət orqanları tərəfindən hazırlanaraq Ali Məhkəməyə təqdim edilmiş qanun layihələri Ali Məhkəmənin Kollegiyaları ilə birlikdə Ali Məhkəmənin Aparatının müvafiq qurumlarında ətraflı öyrənilərək müzakirə edilmiş, bu layihələrə rəy və təkliflər bildirilmişdir. Ali Məhkəmənin Cinayət Kollegiyası 2020-ci ildə müvafiq dövlət orqanları tərəfindən hazırlanaraq Ali Məhkəməyə göndərilmiş cinayət mühakimə icraatında insan hüquq və azadlıqlarının qorunması mövzusuna həsr olunmuş qanun layihələrinin müzakirəsində iştirak etmiş, digər məsələlərin tənzimlənməsinə həsr olunmuş layihələri isə onların həm də əsas insan hüquq və azadlıqları sahəsində standartlara cavab verib-verməməsi baxımından təhlil etmişdir. Kommersiya Kollegiyasının hakimi Azər Hüseynov «Hakimlərin Seçki Komitəsi»nin üzvü kimi hakimliyə namizədlərin imtahanlarında iştirak etmişdir.

**18.** Ali Məhkəmənin hakimləri Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə həyata keçirilən "Yaxşı idarəçilik üçün tərəfdaşlıq II" proqramı və digər beynəlxalq layihələr çərçivəsində təlim və görüşlərdə iştirak etmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında 2020-ci ildə hakimliyə namizədlər üçün təşkil olunmuş kurslarda müxtəlif mühazirələrlə çıxış etmişlər. Cinayət Kollegiyasının hakimləri - Hafiz Nəsibov və Tahir Kazımov müvafiq olaraq "Hakimlərin seçki komitəsi"nin üzvü kimi hakimliyə namizədlərin imtahanlarında və "İxtisas Komissiyası"nın üzvü kimi vəkilliyə namizədlərin imtahanlarında mütəmadi olaraq iştirak etmişlər.

**19.** Azərbaycan Respublikasının Ali Məhkəməsi (Mülki, İnzibati, Kommersiya və Cinayət kollegiyaları) tərəfindən 2020-ci il avqust ayında səlahiyyət müddəti bitən və fəaliyyətlərinin dövri qiymətləndirilməsi nəzərdə tutulan birinci instansiya üzrə 55 (əlli beş), apellyasiya instansiyası üzrə 33 (otuz üç) və kassasiya instansiyası üzrə 15 (on beş) hakimin fəaliyyətlərinin qiymətləndirilməsinə dair rəylər hazırlanaraq, Məhkəmə Hüquq Şurasına təqdim edilmişdir.

## 4.2. Ali Məhkəmənin Plenumunun fəaliyyəti barədə məlumat

**2020-ci ilin birinci yarımilliyində** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun yeddi iclası keçirilmişdir.

**2020-ci il 7 yanvar tarixli** Plenum iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyalarının tərkibi yenidən təşkil edilmiş, Azərbaycan Respublikası Ali Məhkəməsinin sabiq hakimi Mirzəliyev Əsəd Abdulla oğlu Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi-Məsləhət Şurasının üzvü təyin edilmiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteninin redaksiya heyəti təsdiq edilmişdir.

**2020-ci il 16 yanvar tarixli** Plenum iclasında 2019-cu ilin I yarımilliyində respublikanın birinci və apellyasiya instansiyası məhkəmələri tərəfindən təqsirləndidirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlanılma müddətinin uzadılmasına dair təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinə dair məsələ müzakirə olunmuşdur.

**2020-ci il 20 fevral tarixli** Plenum iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin kollegiyalarının 2019-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsinə dair məlumatları dinlənilmiş, Azərbaycan Respublikası Ali Məhkəməsinin 2020-ci ilin I yarısına dair iş planı təsdiq olunmuş, kassasiya instansiya məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərdən ibarət qarışıq tərkibdə baxılmasına dair məhkəmə tərkibi təşkil olunmuş və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin qərar layihəsi müzakirə olunmuşdur.

**2020-ci il 19 mart tarixli** Plenum iclasında koronavirus (COVİD 19) infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahın xüsusi rejimdə iş üzrə Təlimatının tələblərini və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyələrini nəzərə alaraq Azərbaycan Respublikasının məhkəmələrində məhkəmə iclaslarının təxirə salınması məsələsi müzakirə olunmuş və 1 (bir) konkret işə baxılmışdır. Plenum iclasında 1 (bir) mülki iş üzrə əlavə kassasiya şikayəti təmin edilərək, yeni apellyasiya baxışına göndərilmiş, İnsan Hüquqları üzrə Avropa Məhkəməsininin qərarına əsasən baxılmış 2 (iki) cinayət işi üzrə qərar isə ləğv edilərək iş üzrə icraata xitam verilmişdir.

**2020-ci il 23 aprel tarixli** Plenum iclasında koronavirus (COVİD 19) infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahın xüsusi rejimdə iş üzrə Təlimatının tələblərini və Ümumdünya Səhiyyə

Təşkilatının tövsiyyələrini nəzərə alaraq Azərbaycan Respublikasının məhkəmələrində məhkəmə iclaslarının təxirə salınması məsələsi müzakirə olunmuş və 2 (iki) konkret işə baxılmışdır.

**2020-ci il 7 may tarixli** Plenum iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyalarının və qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılmasına dair məhkəmə tərkibi yenidən təşkil edilmiş, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri Əsgərov Çingiz İsgəndər oğlu, Məmmədli Bəhram Məmməd oğlu və Qəribov Bəhman Fərhad oğlunun and icməsi keçirilmiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteninin redaksiya heyəti təsdiq edilmişdir.

**2020-ci ilin ikinci yarımilliyində** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bir iclası keçirilmişdir.

**2020-ci il 18 sentyabr tarixli** Plenum iclasında işlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihəsi müzakirə olunmuş, valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmənin Plenumunun 2011-ci il 28 oktyabr tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının icrası üzrə monitorinqin aparılmasına dair plan və "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının icrası üzrə monitorinqin aparılmasına dair plan təsdiq edilmiş, 14 (on dörd) konkret işə baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarları əsasında baxılmış 6 (altı) mülki iş üzrə apellyasiya və kassasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına, iki (2) mülki iş kassasiya instansiyası məhkəməsinə göndərilmiş, bir (1) mülki iş üzrə isə təqdimat geri qaytarılmışdır.

Konstitusiya Məhkəməsinin qərarları əsasında baxılmış iki (2) inzibati mübahisəyə dair iş üzrə kassasiya instansiya məhkəməsinin qərardadı və qərarı ləğv edilərək, yenidən baxılması üçün Ali Məhkəmənin İnzibati Kollegiyasına, bir (1) inzibati mübahisəyə dair iş üzrə apellyasiya və kassasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına göndərilmişdir.

Konstitusiya Məhkəməsinin qərarları əsasında baxılmış iki (2) kommersiya mübahisəyə dair iş üzrə apellyasiya və kassasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına göndərilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Plenumunda on (10) mülki işə, üç (3) inzibati mübahisələrə dair, iki (2) kommersiya mübahisələrə dair, iki (2) cinayət işi üzrə məsələlərə baxılaraq müvafiq qərarlar çıxarılmışdır. Baxılmış mülki işlərdən səkkizi (8) Konstitusiya Məhkəməsinin qərarı əsasında, biri (1) əlavə kassasiya şikayəti, biri (1) isə təqdimata dair ərizəyə əsasən baxılmışdır. İnzibati işlərdən üçü (3), kommersiya işlərdən ikisi (2) Konstitusiya Məhkəməsinin qərarı əsasında baxılmışdır. İki (2) cinayət işi İnsan Hüquqları üzrə Avropa Məhkəməsininin qərarına əsasən baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarı əsasında daxil olan yeddi (7) mülki iş, Konstitusiya Məhkəməsinin qərarı əsasında daxil olan iki (2) cinayət işi, əlavə kassasiya qaydasında daxil olan bir (1) mülki iş, yeni açılmış hallar üzrə ərizə əsasında daxil olan bir (1) mülki iş isə qalıq kimi 2021-ci ilə keçmişdir.

## 4.3. Aparatın və İşlər İdarəsinin fəaliyyəti barədə məlumat

**1.** Azərbaycan Respublikası Ali Məhkəməsi milli qanunvericiliyin və insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq hüquq normalarının məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılmasını təmin etmək məqsədi ilə öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən yol verilmiş nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda hakimlərin iştirakı ilə müzakirə olunur.

**2.** 2020-ci ildə Ali Məhkəmə Aparatının Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən 2018-ci ildə məhkəmələr tərəfindən hökmün icrası qaydasında "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 20 oktyabr tarixli Azərbaycan Respublikası Qanununun tətbiqi təcrübəsi ümumiləşdirilmiş, 2019-cu ilin 2-ci yarımilliyində təqsirləndirilən şəxslərin barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətinin uzadılması haqqında təqdimatlara baxılması təcrübəsi ümumiləşdirilmiş, 2019-cu ilin 1-ci yarımilliyində vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilmiş, 2019-cu il ərzində "Mülkiyyət hüquqlarının müdafiəsi", "Müflis elan edilmə və iflas prosesinə başlanma" ilə əlaqədar mübahisələrə dair işlərə baxılması təcrübəsi ümumiləşdirilmiş və 2019-cu il ərzində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1, 144-2, 243 və 244-cü maddələri üzrə cinayət işlərinə baxılması təcrübəsi ümumiləşdirilmiş və nəticələri Ali Məhkəmədə geniş müzakirə edilmiş, ümumiləşdirilmə zamanı aşkar edilmiş qanun pozuntuları və nöqsanlar barədə birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktubun göndərilməsi istiqamətində işlər görülmüşdür. Bundan əlavə, Ali Məhkəmə Aparatının Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli (2020-ci il 20 fevral tarixində edilmiş dəyişikliklərlə) Qərarının tətbiqi ilə bağlı və "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında" Ali Məhkəmə Plenumunun 2020-ci il 18

sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqlərin aparılmasına başlanmışdır. Eyni zamanda, 2019-cu il üzrə illik və 2020-ci ilin birinci yarımilliyi üzrə yarımillik statistik hesabatlar hazırlanmış və statistik təhlil üzrə digər işlər görülmüşdür.

**3.** Ali Məhkəmə Aparatının Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsinə daxil olan 397 hüquqi aktın (normativ hüquqi aktlar, normativ xarakterli aktlar, qeyri-normativ aktlar və s.), o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası və təhlil işi həyata keçirilmişdir. Azərbaycan Respublikası qanunvericilik sistemində məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı, öyrənilməsi zəruri olan, yeni qəbul edilən və baş verən dəyişikliklərə dair 100-dən çox hüquqi akt və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qanunvericilikdəki müəyyən normaların şərhi ilə bağlı 16 qərarı Ali Məhkəmənin hakimlərinə və Aparatının işçi heyətinə elektron qaydada göndərilmişdir. Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsinə daxil olan 98 məktub araşdırılmış, məzmunundan asılı olaraq hüquqi aktların, onlara əlavə edilmiş layihələrin və digər məsələlərin öyrənilməsi həyata keçirilmiş və 90-dan çox məktuba rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən dövlət orqanlarına göndərilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi elektron səhifəsində Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsi tərəfindən hüquqi aktlar bölməsinin yaradılması təmin edilmişdir. Eyni zamanda həmin bölmədə müvafiq olaraq Azərbaycan Respublikasının hüquqi aktları, Beynəlxalq sənədlər və Təlimatlar nəzərdə tutulan yarım bölmələr yaradılmış və tərəfimizdən müəyyən edilmiş aktların həmin yarım bölmələrdə yerləşdirilməsi təmin edilmişdir.

**4.** 2020-ci il üzrə rübdə bir dəfə dərc edilərək Ali Məhkəmənin nəşri olan "Azərbaycan Respublikasının Ali Məhkəməsinin Bülleteni"ndə insan hüquq və azadlıqlarının müdafiəsi və hüquq sahəsində digər mühüm işlər ilə bağlı müxtəlif məsələlərə həsr olunmuş məqalələr, həmçinin mülki, cinayət, inzibati və kommersiya işləri üzrə qərarlar və Ali Məhkəmənin Plenumunun qərarları öz əksini tapmışdır.

**5.** 2020-ci ildə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin xarici ölkə məhkəmələrinin hakimləri, beynəlxalq təşkilatlar, Azərbaycan Respublikasının ərazisində yerləşən xarici dövlətlərin diplomatik və konsulluq nümayəndəlikləri ilə keçirilən görüşlərlə əlaqədar təşkilati məsələlərin həll edilməsi, Ali Məhkəməyə daxil olan beynəlxalq sənədlərin öyrənilməsi və qeydiyyatının aparılması təmin edilmiş, xarici ölkələrə ezamiyyətlər ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanları ilə

yazışmaların aparılması, onlar üçün hüquqi xarakterli sənədlərin tərtib olunması təmin edilmişdir. Həmçinin, müvafiq xarici dövlətlərin məhkəmə qərarlarının Azərbaycan Respublikasının ərazisində tanınması və icrası barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının qərardadlarının xarici dilə tərcümə edilərək aidiyyəti üzrə göndərilməsi, xarici ölkə məhkəmələri, beynəlxalq təşkilatlarla yazışmaların aparılması, müraciətlərin və təbrik məktublarının göndərilməsi təmin edilmişdir. İkitərəfli və çoxtərəfli beynəlxalq əlaqələrin genişləndirilməsinə mühüm diqqət yetirməsini nəzərə alaraq hüquqi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səmərəli addımlar atılmış və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 2020-ci il 31 yanvar tarixində Ali Məhkəmənin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Fransanın Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli tədbirdə və "Avropa İnsan Hüquqları Konvensiyası: canlı alət 70-ci ildönümündə" mövzusunda keçirilən iclasda iştirak etmişdir. 2020-ci il 30 noyabr tarixində Ali məhkəmənin sədri Ramiz Rzayev və Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Azərbaycan Respublikası Ali məhkəməsi və "CEELI Institute"-nun birgə təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa ölkələri Ali Məhkəmə sədrlərinin "Pandemiya dövründə məhkəmə fəaliyyətinin idarə edilməsi" mövzusunda videoformatda keçirilmiş konfransda iştirak etmişlər.

**6.** 2020-ci ilin yanvar və fevral aylarında Ali Məhkəmənin hakimləri və Aparat işçilərinin iştirakı ilə mütəmadi olaraq hər həftə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsinə dair seminar-məşğələlər keçirilmişdir, lakin Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yoluxma hallarının qarşısının alınması məqsədilə 2020-ci ilin mart ayından bu tədbirlərin təxirə salınması və karantin rejimi ərəfəsində müvəqqəti dayandırması və xüsusi karantin rejimi bitəndən sonra bərpa edilməsinə dair qərar qəbul olunmuşdur. Bu seminarlarda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Azərbaycana qarşı qərarları birinci və apellyasiya məhkəmələrinin iştirakı ilə müvafiq iclaslarda müzakirə edilir, aşkar olunmuş pozuntular təhlil edilir və gələcəkdə bu pozuntulara yol verilməməsi üçün hakimlərə tövsiyələr verilir. Seminarlara birinci instansiya və apellyasiya məhkəmələrinin hakimləri də dəvət olunurlar. Bu tədbirlərin nəticəsi kimi Azərbaycan məhkəmələri İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinə daha çox diqqət yetirir, onları müvafiq qaydada tətbiq etməklə milli qanunvericiliyi məlum presedentlər prizmasından şərh edir.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin

səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 4.12-ci bəndinə uyğun olaraq, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə edilərək öyrənilməsi ilə yanaşı, məhkəmələrə göndərilməsi təşkil olunmuş və həmin qərarların Ali Məhkəmənin internet səhifəsində "Avropa Məhkəməsinin qərarları" bölməsində yerləşdirilməsi təmin edilmişdir. 2020-ci il ərzində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 15 (on beş) qərarı Azərbaycan dilinə tərcümə edilmiş, Azərbaycana qarşı 37 (otuz yeddi) qərarın press-relizlərinin tərtib olunması və tərcüməsi təşkil olunmuş, 8 (səkkiz) qərarı seminarlarda müzakirəsi keçirilmişdir. Kommunikasiyada Azərbaycana qarşı olan işlərlə əlaqədar Avropa Məhkəməsindən daxil olmuş 8 sorğu üzrə suallar cavablandırılmışdır. 5-dən (beş) çox qərar apellyasiya instansiyası və birinci instansiya məhkəmələrinə, həmçinin qərarın mövzusundan asılı olaraq aidiyyəti qurumlara göndərilmişdir. 2020-ci ildə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 6 (altı) qərarı Ali Məhkəmə tərəfindən tərcümə olunub və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin internet səhifəsində (HUDOC axtarış sistemində) dərc edilmişdir.

**8.** 2018-ci ildə Ali Məhkəmə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Yuxarı İnstansiya Məhkəmələr Şəbəkəsi"nin (SCN) üzvü olmuşdur. Bu şəbəkə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının üzv dövlətlər tərəfindən təyin edilmiş məhkəmələr arasında informasiya mübadiləsinin aparılması üzrə platformasının yaradılmasını nəzərdə tutur və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələr tərəfindən Avropa Konvensiyasının müddəalarını və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərini düzgün və vahid qaydada tətbiqinin təmin edilməsinə xidmət edir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Yuxarı İnstansiya Məhkəmələr Şəbəkəsi"nin 2 (iki) sorğusuna cavab verilmiş və həmin Şəbəkə tərəfindən tərtib edilmiş həftəlik cədvəllər Azərbaycan dilinə tərcümə edilmiş və Ali Məhkəmənin hakimlərinə və əməkdaşlarına göndərilmişdir.

**9.** İkinci Vətən müharibəsi ilə bağlı bəyanatlar tərtib edilmiş və Ali Məhkəmənin veb-saytında dərc edilmişdir. Veb-saytda rəhbərliyin tapşırığı ilə digər xəbərlərin press-relizləri hazırlanmış və dərc edilmiş, Ali Məhkəmənin veb-saytında yaradılmış "Qarabağ Azərbaycandır!" interaktiv bölməsi Azərbaycan dilində tərtib edilmiş, rus və ingilis dillərinə müvafiq tərcümələr edilmiş, həmçinin Facebook və Twitter sosial şəbəkələrində müxtəlif xəbərlər və məlumatlar yerləşdirilmişdir.

**10.** 2020-ci ildə dövlət orqanlarından və bilavasitə vətəndaşlardan 23878 müraciət (kassasiya şikayəti, kassasiya protesti, əlavə kassasiya şikayəti, ərizə, şikayət və sair) daxil olmuşdur. 2020-ci ildə daxil olmuş müraciətlərin sayı 2019-cu illə müqayisədə 8502 (26,2%) müraciət azalmışdır. Dövlət orqanlarından və vətəndaşlardan daxil olmuş 7546 müraciət (23878 müraciətə aid edilməklə) prosessual sənədlər olduğu üçün (kassasiya şikayəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət, izahat və sair) icraatda olan işlərə əlavə edilmiş, 526 prosessual müraciət (əlavə kassasiya qaydasında şikayət, protest, məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə və sair) plenumun icraatı qaydasında baxılmış, digər 15806 müraciətə isə Ali Məhkəmə tərəfindən baxılmışdır. Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin rəhbərliyi və məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09:00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir. 2020-ci ildə şöbənin rəhbərliyi və məsləhətçiləri tərəfindən 172 nəfər qəbul olunmuş, şikayətləri dinlənilmiş, vətəndaşlara müraciət etmə qaydaları və digər prosessual hüquqları izah olunmuşdur. Vətəndaşların qəbulu təsdiq olunmuş cədvəl üzrə müəyyən olunmuş günlərdə və saatlarda aparılmışdır. Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, 2020-ci ilin yanvar-mart aylarında Ali Məhkəmənin sədri və Cinayət kollegiyasının sədri tərəfindən vətəndaşların səyyar qəbulu keçirilmişdir. Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə görülən tədbirlər nəticəsində 2020-ci ilin mart ayından başlayaraq vətəndaşların fərdi və kollektiv qaydada qəbulu dayandırıldığından qəbul digər vasitələrlə (telefon, mobil və internet rabitəsi ilə) həyata keçirilmişdir. Hesabatın əhatə etdiyi dövr ərzində Ali Məhkəmənin sədri, sədr müavini və kollegiya sədrləri tərəfindən 230 nəfər, o cümlədən 135 nəfər bölgələrdə qəbul olunmuşdur. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilmiş, qaldırılan məsələlərlə bağlı izahlar verilmiş, eyni zamanda təqdim edilmiş müraciətlər üzrə Ali Məhkəmənin qəbulda iştirak edən aidiyyəti məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilmişdir.

**11.** Ali Məhkəmənin İşlər İdarəsinin Elektron məhkəmə məsələləri və İnformasiya texnologiyaları şöbəsi tərəfindən "Elektron məhkəmə informasiya sistemi" və Azərbaycan Respublikasının Ali Məhkəməsində mövcud informasiya texnologiyaları infrastrukturu üzrə aparılmış təkmilləşdirmə, modernizasiya və informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə aşağıdakı işlər həyata keçirilmişdir:

- "Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair" sorğunun bütün respublika üzrə inzibati məhkəmələrdə, eyni zamanda apellyasiya və

kassasiya instansiya məhkəmələrini əhatə etmək şərti ilə Elektron məhkəmə informasiya sisteminə inteqrasiya olunması;

- Ali Məhkəmənin İnzibati Kollegiyası tərəfindən birinci və apellyasiya instansiya məhkəmələrinin hakimləri üçün "Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair" sorğu üzrə onlayn təlimin təşkili;
- "Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi" ilə əlaqədar Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən təqdim olunmuş sorğunun avtomatlaşdırılması və tətbiqi;
- Ali Məhkəmənin əməkdaşları üçün bütün məhkəmə sistemini əhatə edən elektron telefon kitabçasının hazırlanması və tətbiqi;
- Elektron məhkəmə informasiya sistemində iş üzrə qəbul edilmiş məhkəmə aktlarının qanunvericilikdə nəzərdə tutulmuş müddət ərzində sistemə daxil edilməsini məcbur edən funksionallığın tətbiqi;
- Ali Məhkəmənin fəaliyyəti üçün Elektron məhkəmə informasiya sisteminə qoşulmuş bütün məhkəmələrdə olan işlər üzrə axtarış funksionallığının tətbiqi;
- Pandemiya şəraitini nəzərə alaraq, Elektron məhkəmə informasiya sistemində inzibati işlər üzrə yazılı icraatın aparılması üçün müvafiq dəyişikliklərin işlənməsini təmin edilməsi;
- Elektron məhkəmə informasiya sistemində Məhkəmə qərarların avtomatik anonimləşdirilməsini təmin edən proqram təminatı üzrə test işlərinin aparılması, aparılmış testlər nəticəsində aşkar olunmuş texniki nöqsanların aradan qaldırılması və sistemin tətbiqi;
- Elektron məhkəmə informasiya sistemində elektron kabinet vasitəsilə elektron kassasiya şikayətinin verilməsi;
- Elektron məhkəmə informasiya sistemində məhkəmə sənədləri üzrə yeni şablonların hazırlanması və sistemdə tətbiqi;
- Elektron məhkəmə informasiya sistemində məhkəmə aktlarının tərkib tərəfindən imzalanmasını təmin edən funksionallığın tətbiqi (3 imza);
- Elektron sənəd dövriyyəsi sistemində səlahiyyətli şəxslər tərəfindən sənədlərin elektron imza vasitəsi ilə imzalamasını təmin edən funksionallığın yaradılması və həmin şəxslərin elektron imza tokeni ilə təmin edilməsi;
- Məhkəmə iclaslarının audio-video yazılarının aparılmasını təmin edən "Az-Femida" sisteminin fasiləsiz fəaliyyətini təmin olunması məqsədi ilə aparılmış monitorinqlər nəticəsində

ortaya çıxan bütün texniki problemlərin həlli, “Az-Femida” sistemində gün ərzində təyin olunmuş iclasın ikinci hissəsinin audio-video yazısının aparılmasını təmin edən funksionallığın tətbiqi;

- Məhkəmə iclaslarının audio-video yazılarının aparılması vəziyyətinə nəzarət edən funksionallığın tətbiqi və hesabat formalarının alınması;
- Ali Məhkəmənin şəbəkə avadanlıqlarına və informasiya resurslarına kənardan qoşulma imkanlarına texniki məhdudiyyətin tətbiq edilməsi.

# 5. Ali Məhkəmənin 2020-ci ildə beynəlxalq əlaqələri

## 2020-ci il ərzində keçirilmiş beynəlxalq tədbirlər, görüş və səfərlər barədə məlumat

Yanvar ayının 22-də Ali Məhkəmənin sədri Ramiz Rzayev 9 fevral Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) İcrayə Komitəsi sədrinin birinci müavini Viktor Quminski və MDB Müşahidə Missiyasının nümayəndə heyəti ilə görüşmüşdür.

Yanvar ayının 27-də Mütərəqqi Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsinə Təklif olunan Əlavə Maliyyələşdirmə üzrə İdentifikasiya Hazırlıq Missiyasını həyata keçirəcək Dünya Bankının nümayəndə heyətini  Ali Məhkəmənin sədri Ramiz Rzayev qəbul etmişdir.

Yanvar ayının 28-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun təsis etdiyi Seçki Müşahidə Missiyasının rəhbəri Piter Teylerin başçılıq etdiyi nümayəndə heyəti ilə müzakirə aparmışdır.

Yanvar ayının 31-də Ali Məhkəmənin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Fransanın Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli tədbirdə və “Avropa İnsan Hüquqları Konvensiyası: canlı alət 70-ci ildönümündə” mövzusunda keçirilən iclasda iştirak etmişdir.

Fevral ayının 25-27-də Qətər Dövlətinin Doha şəhərində keçirilmiş Məhkəmə Dürüstlüyü üzrə Qlobal Şəbəkənin yüksək səviyyəli iclasında Ali Məhkəmənin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Əli-İsa Dadaşov iştirak etmişdir.

İyul ayının 3-də  Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elvin Hətəmzadə Avropa Şurasının və Avropa İttifaqının Birgə Proqramı olan “Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması” ilə bağlı layihəsinin icrası ilə əlaqədar “Məhkəmə orqanları üçün kommunikasiya strategiyası” üzrə müvafiq CEPEJ alətlərinin müzakirəsinə həsr olunmuş video-görüşdə iştirak etmişlər.

Oktyabr ayının 23-də Avropa İnsan Hüquqları Məhkəməsində “Həbs və sağlamlıq” mövzusunda keçirilmiş vebinarda İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Əli-İsa Dadaşov və İnsan

hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin böyük məsləhətçisi Nərgiz Ocaqverdiyeva iştirak etmişlər.

Noyabr ayının 30-da Ali Məhkəmənin sədri Ramiz Rzayev və Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Azərbaycan Respublikası Ali Məhkəməsi və “CEELI Institute”-nun birgə təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa ölkələri Ali Məhkəmə sədrlərinin “Pandemiya dövründə məhkəmə fəaliyyətinin idarə edilməsi” mövzusunda videoformatda keçirilmiş konfransda iştirak etmişlər.

# Bəzi tədbirlər barədə ətraflı məlumat

## Mütərəqqi Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsinə Təklif olunan Əlavə Maliyyələşdirmə üzrə İdentifikasiya Hazırlıq Missiyasını həyata keçirəcək Dünya Bankının heyəti Ali Məhkəmənin sədri ilə görüşmüşdür.



2020-ci il yanvarın 27-də Mütərəqqi Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsinə Təklif olunan Əlavə Maliyyələşdirmə üzrə İdentifikasiya Hazırlıq Missiyasını həyata keçirəcək Dünya Bankının heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüş zamanı Azərbaycanda məhkəmə strukturunun müasirləşdirilməsi, "Elektron-məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı yerinə yetirilən işlər, qarşıda duran məsələlər və onların həyata keçirilməsi imkanları müzakirə olunmuşdur.

Nümayəndə heyəti Azərbaycanda məhkəmə strukturunun müasirləşdirilməsi ilə bağlı görülən işlərdən, bu işlərin görülməsinə müəyyən töhfə verdiklərindən məmnun oldularını və Elektron Məhkəmə İnfrastrukturu Layihəsini bir daha dəstəkləmək və əlavə maliyyələşdirmə ilə bağlı qiymətləndirilməni aparmaq məqsədilə Azərbaycana gəldiklərini söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) təsis etdiyi Seçki Müşahidə Missiyasının rəhbəri Piter Teylerin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.**



Ali Məhkəmənin sədri Ramiz Rzayev nümayəndə heyətini salamlamış və bildirmişdir ki, seçkinin Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrin tələbinə, Avropa standartlarına uyğun aparılması dövlətimizin əsas məqsədlərindən biridir.

Ali Məhkəmənin sədri seçki hüquqlarının müdafiəsi, mübahisələrin məhkəmə aidiyyəti və bu sahədə məhkəmə təcrübəsi ilə bağlı fikirlərini açıqlamış, seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər və onlara baxılması qaydaları barədə ətraflı məlumat vermişdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri Piter Teyler qeyd etmişdir ki, Seçki Müşahidə Missiyası seçki prosesinin bütün əsas aspektlərini izləyəcək və seçkilərin ATƏT öhdəliklərinə, demokratik seçkilər üzrə digər beynəlxalq standartlara, eləcə də, milli qanunvericiliyə uyğun həyata keçirilməsini qiymətləndirəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**MDB Müşahidə Missiyasının nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.**



2020-ci il yanvarın 22-də Ali Məhkəmənin sədri Ramiz Rzayev fevralın 9-da Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) İcrayə Komitəsi sədrinin birinci müavini Viktor Quminski və MDB Müşahidə Missiyasının nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məhkəmənin sədri Ramiz Rzayev nümayəndə heyətini salamlamış və bildirmişdir ki, seçki hər bir ölkənin ictimai-siyasi həyatında mühüm hadisə, eyni zamanda, vətəndaşların dövlətin və ictimai həyatın idarə olunmasında kütləvi iştirak formalarından biridir. Seçkinin Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrin tələbinə, Avropa standartlarına uyğun aparılması dövlətimizin əsas məqsədlərindən biridir.

Ali Məhkəmənin sədri  seçki hüquqlarının müdafiəsi, mübahisələrin məhkəmə aidiyyatı və bu sahədə məhkəmə təcrübəsi ilə bağlı fikirlərini açıqlamış, seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər və onlara baxılması qaydaları barədə ətraflı məlumat vermişdir. Ali Məhkəmənin sədri vurğulamışdır ki, Parlament seçkilərinin qanunvericiliyə uyğun şəkildə aparılması üçün Azərbaycan hakimiyyəti tərəfindən lazımi tədbirlər görülür. Atılan bütün addımlar seçki qanunvericiliyinin təkmilləşdirilməsinə, seçki mühitinin demokratikliyinə xidmət edir.

Səmimi qəbula görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri Viktor Quminski qeyd edib ki, onlar Azərbaycanda keçirilən seçki prosesini daima müşahidə edirlər. O, ölkəmizin bu sahədə böyük təcrübə qazandığını qeyd edıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Mərkəzi və Şərqi Avropa ölkələri Ali Məhkəmə sədrlərinin konfransı keçirilmişdir.**




2020-ci il noyabrın 30-da Azərbaycan Respublikası Ali Məhkəməsi və “CEELI Institute”-nun birgə təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa ölkələri Ali Məhkəmə sədrlərinin “Pandemiya dövründə məhkəmə fəaliyyətinin idarə edilməsi” mövzusunda videoformatda konfrans keçirilmişdir.

Konfransın keçirilməsində əsas məqsəd pandemiya dövründə məhkəmələrin xüsusi rejim şəraitində fəaliyyətinin təşkili ilə bağlı müzakirələr aparmaq, məhkəmələrin üzləşdiyi mövcud problemlərin həlli və müasir informasiya texnologiya və innovasiyaların tətbiqi barədə təcrübələri paylaşmaq olmuşdur.

Konfransın açılış mərasimində iştirakçıları salamlayan Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev, Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığını və Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonunu işğal etdiyini, bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyini bildirmişdir.

Ali Məhkəmənin sədri qeyd etmişdir ki, Ermənistan 30 ilə yaxındır ki, BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə və digər aparıcı beynəlxalq təşkilatlarının qərarlarına

məhəl qoymayaraq işğalda saxladığı torpaqlarımızı azad etməmişdir. 1994-cü ildə atəşkəs rejiminə nail olduqdan sonra münaqişənin sülh yolu ilə həlli istiqamətində vasitəçilik missiyası – ATƏT-in Minsk Qrupuna həvalə edilmişdir. Lakin sülh danışıqlarında Ermənistan qeyri-konstruktiv mövqe sərgiləyərək münaqişənin sülh yolu ilə həllini uzatmış və ona sərf edən status-kvonu davam etdirmişdir.

30 il davam edən Ermənistan-Azərbaycan- Dağlıq Qarabağ münaqişəsinin pik həddi isə, 2020-ci ilin sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizi və eləcə də yaşayış məntəqələrimizi və mülki əhalini qəsdən və məqsədyönlü şəkildə atəşə tutaraq təmas xətti boyunca Azərbaycana qarşı geniş miqyaslı hərbi kampaniyaya başlaması olmuşdur.

Ali Məhkəmə sədrlərinin diqqətinə çatdırılib ki, Ermənistan silahlı qüvvələri intensiv döyüşlər getdiyi dövrdə tərəflər arasında əldə edilmiş atəşkəs razılaşmalarını hər dəfə kobudcasına pozaraq münaqişə zonasından uzaqda yerləşən şəhərlərin sıx məskunlaşdığı əraziləri və orda məskunlaşan dinc əhalini qəsdən hədəfə almaqla beynəlxalq humanitar hüquq normalarında qadağan olunmuş kassetli və fosforlu bombalardan, ballistik raketlərdən istifadə edib. Mülki əhaliyə qarşı qəsdən və heç bir ayırım gözlənilmədən törədilən bu hücumlar beynəlxalq insan hüquqları təşkilatlarının yayımladığı hesabatlarda geniş şəkildə sənədləşdirilmişdir. Nəticədə 27-i qadın və 11-i uşaq olmaqla 100-ə yaxın mülki şəxsin həlak olduğu və 400-dən çox insanın yaralandığı bildirilib. Mülki itkilərlə yanaşı, mülki infrastruktura ciddi şəkildə ziyan dəymişdir.

Buna cavab olaraq, Azərbaycan silahlı qüvvələri Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon üzərindəki beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa etmək məqsədi ilə BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi üçün əks-həmlə əməliyyatlarına başlamışdır. Əks-həmlə əməliyyatları nəticəsində, Azərbaycanın silahlı qüvvələri Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri də daxil olmaqla, çox sayda yaşayış məntəqələrini erməni işğalından azad etmişdir.

Doğma torpaqları uğrunda və yalnız öz ərazilərində vuruşan ordumuzun uğurlu əks-hücumu nəticəsində uzun illər ərzində işğal altında qalan şəhər və rayonların işğaldan azad olunmasını bildirən Ali Məhkəmənin sədri noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş nazirinin birgə imzaladığı işğal olunmuş ərazilərin geri qaytarılması, münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanatını iştirakçıların diqqətinə çatdırmışdır.

Ali Məhkəmənin sədri Ramiz Rzayev Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə



koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı görülən işlər, məhkəmələrdə pandemiyaya qarşı zəruri profilaktik və qabaqlayıcı tədbirlərin görülməsi haqda konfrans iştirakçılarına məlumat vermişdir.

Eləcə də, konfransda müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin gücləndirilməsi prosesi, məhkəmə müstəqilliyi və şəffaflığı və ədalət mühakiməsinə əlçatanlıq mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov müzakirə olunan mövzularla bağlı diskussiyalarda iştirak edərək ölkəmizdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə məhkəmə-hüquq sistemində həyata keçirilən fundamental islahatlar barədə danışmış, eləcə də, COVID-19 qlobal pandemiyasının qanunun aliliyinə və ədalət mühakiməsinə təsirini, pandemiya dövründə Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən görülən tədbirləri, xüsusi rejim şəraitində məhkəmələrin fəaliyyətinin təşkilini və vətəndaşların məhkəmələrə əlçatanlığının asanlaşdırılması məqsədilə müasir innovasiyaların tətbiqini iştirakçıların diqqətinə çatdırmışdır.

Konfransda Mərkəzi və Şərqi Avropa Ali Məhkəmə sədrləri pandemiya şəraitində öz ölkələrində məhkəmələrin üzləşdiyi problemlər, onların həlli və məhkəmələrə əlçatanlığın asanlaşdırılması məqsədilə tətbiq olunan müasir informasiya texnologiyaları və innovasiyalar haqda çıxış etmişlər.

Səmərəli fikir mübadiləsi zamanı COVID-19 qlobal pandemiyası dövründə əldə olunmuş Azərbaycanın məhkəmə təcrübəsinə böyük maraq göstərilmişdir.

## 6. Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar, onun Xüsusi Buraxılışında isə müstəsna əhəmiyyətə malik olan məlumat və sənədlər dərc olunur.

2020-ci ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

2020-ci ildə buraxılmış bülletenlərdə Respublikanın əməkdar hüquqşünası Müzəffər Ağazadənin "Cinayət-Prosessual Məcəllənin 410-cu maddəsi barədə mülahizələrimiz", "Cinayət Məcəlləsinin qüsurlu 189-1-ci maddəsi barəsində", "Yeri gəlmişkən... (qanunlarda maddələrin nömrələnməsi, ifadələrin və terminlərin yazılış tərzi və sair barədə)", Ali Məhkəmənin hakimlərindən Vəfaddin İbayevin "Həqiqət və ədalət prinsiplərinin müqayisəli tədqiqi" məqalələri, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar və aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

# 7. Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2010-cu il 19 oktyabr tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2020-ci ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **14.030.180** manat, o cümlədən, əmək haqqı fondu **10.220.194** manat müəyyən edildiyi halda, 2021-ci ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **14.287.871** manat müəyyən edilmişdir ki, bu da 2020-ci ildə ayrılan büdcə vəsaitindən **257.691** manat çoxdur.

## 8. Media nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Media nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Vəliyeva Elşanə Rafiq qızına və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Elşanə Vəliyeva ilə **496-58-13** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin ***contact@supremecourt.gov.az*** e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.